

**TAMELLA PƏRVİN**

## *QILINC YERİDİ*

Çəkmə məni çölə, gülə aparma,
Şeirim, köklə məni vətən dərdimə.
Ürək, məni məhvrimdən qoparma,
Bir atım daş olum, yetim dərdimə.

Çax qılıncım, çəpəl daşın başına,
Bu qayanın bir qılınclıq canı yox.
Düşsün daşım həqiqətin başına,
Həqiqətin, bir yalanlıq şanı yox.

Ümidlərim düyün vurub qaşımda,
Vüsalımın yolu daşdı, qayadı.
Gəl vuruşaq, sıldırımın başında,
Qalan nə var, bir nağıldı, röyadı.

Min ildir üfüqdən baxır Oğuzum,
Dinir yaddaşımın güvənc yerləri.
İndi olubdumu fağır Oğuzum.
Biz ki mat qoymuşuq əsatirləri.

Dinləginən, at üstəyəm, ay Vətən,
Üfüq qan içində, qılınc yeridi.
Qarabağsız Şikəstəyəm, ay Vətən,
Namərd söz qanmadı... Qılınc yeridi!

## *VƏTƏN*

Yenə şəhid qanı içirsən, Vətən,
Yenə gözümüzün yaşı sel kimi.
Hansı imtahandan keçirsən, Vətən,
Haqqının qan rəngi - Qızılgül kimi...

Ləngiyən zəfərin qırsan inadın,
Üçrəngli bayrağı sancım, üfüqə.
Ucaldaq Turklüyün uca, ağ adın,
Oğul doğmalıdır sancım, üfüqə...

## *AYRILIQ*

Bitdi... son günüymüş, bir xoşbəxtliyin,
Düşdü aramıza, nədən ayrılıq.
Neyləyim, yiyəsi ölüb bu ömrün,
Gülür künc-bucaqdan güdən ayrılıq...

Hələ də bir ümid əl eyləyirdi,
Ömür ləngiyirdi getməzdən qabaq.
Bir bülbül nə gözəl şərqi deyirdi,
Ölüm nəğməsini ötməzdən qabaq.

Dayan, ay ayrılıq səbrini bir bas,
Gözlə deyilməmiş sözüm var mənim.
Hər gələn əcələ can vermək olmaz,
Uca zirvələrdə gözüm var mənim.

## *DOĞRAMA*

Salam, kənd ovqatım, yerim-yemişim,
Beçələr böyüyüb, vardı doğrama?
Lobya, badımcanı, bibəri necə,
Yenə süfrəmizə yardı doğrama?

Tutubmu özünü xiyara yenə,
Göy soğan, keşnişi, ağ reyhan ilə.
Əgər hazırdısa, bir xəbər eylə,
Qarnı doyurursa zordu doğrama...

Qonaq get, doğrama səndən tez gedər,
Qorxmaz gecəsindən, həm gündüz gedər,
Vallah, beçəsindən qaçıb tez gedər,
Süfrəyə bərəkət, bardı doğrama...

Bir nəfis yandırmaz, gözqaytarandı,
Yoxluqda, varlıqda, işə yarandı,
İçibdi sədaqət, etibar andı,
Kasıba dövlətdi, vardı, doğrama...

Hərdən lap yuxuma girir, gecələr,
Həsrətim yollanır, gəlir gecəlr,
Nəfsim, dağ-daşı dəlir, gecələr,
Eşqdi, intizardı, yardı, doğrama...

## BU YOL SƏNİNDİ

Nə susub durmusan əlində qələm,
Payıza köklənmiş yay səhərində.
Bu səhər çöpün də dərdin bilirəm,
Çınqıyıb durmuşam qəm çəpərində.

Əlləşib dünyayla məğlubam elə,
Əlvida kiminə, salam kiminə.
Yalandan gülürəm, qəm gülə-gülə,
Qovulub düşmüşəm, qəm gülşəninə.

Üstdə oturmağa bir daş tapsana,
Küsən arzuların uzaq, çox uzaq.
Hərdənbir boylanıb yola baxsana,
Yollar da olubdu, bir ac yalquzaq.

Durduğun o yerdə qurtarır bu yol,
Gətirir, aparmır, bu yollar indi.
Gəldiyin yerlərə qayıda bilsən,
Yenə də beşgünlük dünya sənindi.

Görərsən kim qucub arzularını,
Özün bil, özün seç, di tərpən indi.
Can deyib, oxşayıb, sevdiyin adam,
"Çəpər"dən başlanan, bu yol sənindi.

Bir azdan xatirə olacaq hər şey...
Çevrilib, bu suyun rəqsinə bir bax,
Bir ağac kölgəsi, çəməndə çiçək.
Şəvə saçlarım bax, olub ağappaq,

Ay gözəl bəri bax şəklini çəkək.
Bir azdan xatirə olacaq hər şey...
Heç nəyin indisi qalımır sabaha.
Minillik qayada nə axtarırsan,

Tanrı, cəlladımı yazma günaha,
Onu da, məni də sən yaratmısan.
Bir azdan xatirə olacaq hər şey...
Qaranlıq dərənin çəmən dərdi var.

Quzey tax sinənə, günəş arzunu,
Bu bezmiş təpəni, bir düzə apar,
Ay yağış səhraya səp, o ruzini.
Bir azdan xatirə olacaq hər şey...

Olən ümidlərim bitəcək harda,
Mənim ümidlərim, yurdun sabahı.
Ötən xatirələr səhvdə, günahda,
Saxlayın, sabaha gedən günahı,
Bir azdan xatirə olacaq hər şey...

## BİR ŞEİR AZIB İÇİMDƏ

İlahi, bir şeir azıb içimdə,
Əlim dərə bilmir, yetişən dəni.
Xəyalım sən boyda, sənin biçimdə,
Oxşaya bilmirəm, o xatirəni.

Hürkmüşəm hissimin seli yamandır,
Hansı misranınsa əcəli çatıb.
Şeir doğmağıma, məni inandır,
Uçaram göylərə həmlimi atıb.

Ay Allah, nə gözəl açıldı təbim,
Səni hey görəcəm, doğub yenidən.
Sözün zirvəsini gəzir əllərim,
Yenə hamiləyəm sözə, təzədən.

Həyat bax beləcə ötdü yanımdan,
Bir cığır düşmədi ömrün ağına.
Mən necə çıxdım ki, tanrı yadından?
Bu yol aparармı gənclik çağına?

Bu kimdi yarımcan baxır gözümdən,
İstini, soyuğu bilmədi ki bu.
Acısı, ağrısı axır gözündən,
Bir dəfə ürəkdən gülmədi ki bu.

Yan ötün, keçməyin bunun yanından,
Tanrının qəzəbi bitməyib hələ.
İncik taleyindən, sərt inadından,
Bu ömür yeriyib, keçməyib hələ.

Hələ uşaqlığı sayır telini,
Rəqəmlər dilində göynəyir yaman.
Qaytara bilməzsən çıxıb gedəni
Səs salma, bu adam kövrəlib yaman.

Bu adam gör necə yarıkönüldü,
Getdiyi hər yerə ləngiyir gedir.
Yüyürüb gedənlər payın götürdü,
Görəsən, bu adam nə deyir, gedir?

Ay dünya, nağılçı, yeri, get daha,
Yeri get, mənimlə günün sovmasın.
Mənə elə baxıb, düşmə günaha,
Bir daha mənimlə işin olmasın.